**Fəttah XALIQZADƏ**

Sənətşünaslıq üzrə fəlsəfə doktoru,əməkdar incəsənət xadimi, professor
Ünvan: Bakı, Yasamal rayonu Ələsgər Ələkbərov 7
Email: halikzade@mail.ru

# ÜMUMDÜNYA TAILAND KONFRANSINDA

***Xülasə***. *Bu il Tailandın Chulalonqkorn Universiteti Ənənəvi Musiqi üzrə Beynəlxalq Şuranın (İCTM-in) 45-ci Ümumdünya konfransına ev sahibliyi etmişdir. Şura etnomusiqişünaslıq və xalq rəqslərini öyrənən etnokoreology sahəsində dünyanın tanınmış mütəxəssislərini öz sıralarında birləşdirir, bu sahələrdə qazanılan ən yeni nailiyyətləri qlobal miqyasda müzakirələrə çıxarır. Məqalədə konfransın müxtəlif tədbirlər silsiləsi, metodoloji məsələlər, qeyri-Avropa elmi məktəblərinin hazırkı vəziyyəti, eləcə də, Türk xalqlarının, o cümlədən Azərbaycan ənənəvi musiqi və rəqs sənətinin dünya kontekstində öyrənilməsi, və ümumiyyətlə səfərin təəssüratları işıqlandırılır. Bütün bunlar milli mütəxəssislərimizi beynəlxalq miqyasda daha yaxından fəaliyyət göstərməyə ruhlandırır.*

**Açar sözlər:** *etnomusiqişünaslıq, ənənəvi musiqi və rəqslər, dünya xalaları, yeni metod və yanaşmalar.*



*Orta əsrlər Budda məbədi*

Bu il Ənənəvi Musiqi üzrə Beynəlxalq Şura (ICTM) 45-ci Ümumdünya konfransını (11-17 iyul, 2019) ilk dəfə olaraq Cənub-Şərqi Asiyada – Tailandın paytaxtı Banqkokda təşkil etmişdi. Ekzotik ölkədə yaşadığım zəngin və parlaq təəssüratlarımın bir qismi ölkənin tarixi, mədəni və ictimai şəraiti ilə bağlı idisə, ən başlıca cəhəti, şübhəsiz ki, bu möhtəşəm forumun çoxsaylı tədbirlərindən ibarət oldu (elmi və plenar iclaslar, dəyirmi masalar, biznes-mitinqlər, ustad dərsləri, konsertlər və s.). Beləliklə də, konfransın işi bütün iştirakçılarda və dinləyicilərdə etnomusiqişünaslıq və onun rəqs sənətindəki bənzəri – etnoxoreologiyanın mövcud vəziyyəti və prioritetləri barədə yetərincə dolğun təsəvvür oyatdı. Hazırkı məqalədə həmin təəssüratlarımı, fikir və düşüncələrimi öz həmkarlarımla, o cümlədən bu sahə ilə məşğul olmaq istəyən gənclərlə paylaşmaq istərdim.

Əvvəlcə ICTM təşkilatının və onun xidmət etdiyi etnomusiqişünaslıq elminin keçmişinə qısa bir nəzər salaq. Qurumun qısaldılmış adı – ICTM ingilis dilində *International Council for Traditional Music* şəklində açıqlanır. Söz birləşməsi Azərbaycan dilinə yuxarıda göstərildiyi kimi tərcümə oluna bilsə də, həmin qısaltma tələffüzü və yazılışı etbarilə demək olar bütün digər dillərdə ingiliscə olduğu kimi qəbul edilmişdir.



*Plenar iclasda*

ICTM isə UNESCO nəzdində yaradılmış və bütün dünyanın alim və sənətkarlarını birləşdirən bir təşkilatdır. Təşkilatın başlıca məqsədi müxtəlif qitə və ölkələrə məxsus musiqi və rəqslərin tədqiqi, təcrübəsi və qorunub saxlanılmasıdan ibarətdir. Şuranın ümumdünya konfransları tək illərdə, onun nəzdindəki Tədqiqat Qruplarının Simpoziumları isə cüt illərdə düzənlənir.

Təşkilat yarandığı ildə (1947) International Folk Music Council (IFMC) adını daşımış, lakin, tezliklə folklor musiqisi yerinə ənənəvi musiqi anlayışı deyildiyi üçün o, ICTM adını almışdır. Şura 70 illik yubileyini iki il bundan qabaq Limerik şəhərində (İrlandiya) 44-cü Ümumdünya konfransında qeyd edib onilliklər ərzində keçdiyi yola yekun vurdu və indi də etnomüzikologiya və etnoxoreologiya kimi yaxın elmi sahələrə səmərəli xidmət göstərməkdədir.



*Tailand ifaçısı*

Yaşı minillərlə ölçülən musiqi elmi bütün tarixi ərzində digər elmlərlə (ilk növbədə riyaziyyat, astronomiya və fəlsəfə ilə) sıx bağlı olmuş, müstəqil bir sahə - *musicology* (yəni, musiqişünaslıq) olaraq yalnız XVIII əsrdə meydana gəlmişdir. Bu fənn Avropa ölkələrində olduğu kimi Rusiya və digər keçmiş müttəfiq respublikalarda, o cümlədən, Azərbaycanda təsis edilmiş ali musiqi məktəblərində indiyə qədər ciddi şəkildə tədris olmaqdadır. Onun iki başlıca qolunu təşkil edən musiqi tarixi və musiqi nəzəriyyəsi əsasən klassik Avropa musiqisinə və milli bəstəkar yaradıcılığına həsr olunmuşdur.

Daha sonralar musiqişünas, bəstəkar, etnoqraf və filoloqlar tərəfindən musiqi folklorşünaslığı yaradıldı və ali məktəblərdə müəyyən yer tutdu. Yeri gəlmişkən, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyası (indiki Bakı Musiqi Akademiyası) və Azərbaycan Milli Konservatoriyasında xalq musiqisi, onun ifaçılığı, toplanması, muğam və aşıq musiqisi uzun müddət tədris olmaqdadır. Bundan başqa Qərb öl-

kələrində qeyri Avropa xalqlarının şifahi ənənəli xalq və professional musiqisini öyrənən fənn əvvəlcə müqayisəli musiqişünaslıq, (Q.Adler, 1885), sonra isə *ethnomusicology* (Y.Kunst, 1950) adlanmışdır.

Ötən əsrin sonlarına doğru yetkinlik çağlarına çatmış etnomusiqişünaslıq hazırda nəhəng vəzifələr daşıyır. Bu yeni və müstəqil fənn tarixi-kulturoloji metodu rəhbər tutaraq bütün dünya xalqlarının rəngarəng musiqi mədəniyyətini hədəfə alır, eyni zamanda folklorun hüdudlarından kənara çıxaraq tədqiqat obyektini daima genişləndirir, araşdırma mövzularının sayını da get-gedə artırır. Belə bir geniş, sözün əsl mənasında qlobal miqyaslı elmi və praktiki fəaliyyət bütün dünya tədqiqatçılarının sıx əməkdaşlığı zərurətini irəli sürmüşdür**.** Əvvəlcə folklor musiqisinə, az sonra da ənənəvi musiqiyə həsr olunmuş beynəlxalq şuralar (yəni, IFMC və ICTM) məhz həmin zərurətdən meydana gəlmişdir.

Bir həftə ərzində Ümumdünya elmi forumunda Tailandın adi insanlarından tutmuş musiqiçi və tədqiqatçılarına qədər bir çox vətəndaşları, ictimai və mədəni həyatı, xalq və saray musiqisilə bilavasitə tanış ola bildik. Tailand mədəniyyəti ilə tanışlığım əslində Bakıda başlamışdı. Ölkənin Azərbaycandakı səfirliyindəki həm ekzotik lövhələr, həm də müasir qərb üslubunda ucaldılmış göydələnlərin foto-şəkilləri, bəzi sənədlərdə rast gəldiyim özünəməxsus əlifba Taylar ölkəsinin (*thai* - tərcümədə azad, *Thailand* isə azad insanların vətəni deməkdir) qonşu Çinə yaxınlığı və az qala onun qədim sivilizasiyasına daxil olması barədə yanlış təsəvvürlərə elə bəri başdan son qoydu. Lakin, bu əlifbanın da hərfləri Çin heroqlifləri kimi iki ölçülüdür, yəni, sadəcə şaquli və üfüqi xətlərdən ibarətdir və bununla da ərəb əlifbasının üçölçülü fəzasından fərqlənir. Bildiyimiz kimi, İslam xəttatlıq sənətinin ecazkar nümunələri kainatın sonsuzluğu və ilahilik təsəvvürlərini açıq-aydın əks etdirməyə qadirdir. Bəlkə də əksinə, sonsuzluq fəzası əski əlifbanın üçüncü ölçüsünü, adətən çox dərin olan fon-relyef münasibətini doğurmuşdur.

Tayların ölkəsi barədə ən real və konkret görüntülər isə Banqkok Hava limanında təyyarədən enəndən sonra qarşımıza çıxdı. Paytaxtın mərkəzinə Çulalonqkorn Universitetinə aparan yolda bir-birinin ardınca iki böyük və yaraşıqlı məscid binasını gördüm. Deməli, buddizmin hökmran olduğu bu ölkədə İslam dini az da olsa özünə yer almışdı. Yol boyu gözə dəyən Kral portretləri "Long live the King" ("Yaşasın Kral") şüarları isə mütləqiyyət idarə üsulunu vurğulayırdı. Axşam otel ətrafında gəzintiyə çıxdıqda isə buddizm məbədi ilə yanaşı iki xristian kilsəsi də diqqətimi çəkdi: "Görəsən İslam və xristian dinləri cənub-şərqi Asiya regionuna necə və nə zaman gəlib çatmışdı?" – deyə düşüncələrə dalırdım.

Banqkok konfransına xüsusi komissiya tərəfindən qəbul edilmiş 500-dən artıq məruzənin hamısını dinləmək üçün hər gün paralel olaraq on bir iclas (o cümlədən, bir film sessiyası) təşkil olunmuşdu. Müəyyən bir başlıq altında birləşdirilən panel iclasları beynəlxalq aləmdə tanınmış sədrlər tərəfindən idarə olunurdu.

Respublikamızın mütəxəssisləri ümumdünya konfranslarına dəvət alır, daha çox isə iki Tədqiqat Qrupunun – Məqam və Türkcə danışan Dünyanın xalq musiqisinə həsr olunmuş qrupların simpoziumlarında iştirak edirlər. Bu qruplardan birincisinin simpoziumları son onillikdə Heydər Əliyev Fondu və Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə bir neçə dəfə Bakıda, və eləcə də Şəkidə (2018) baş tutmuşdur.

Türk xalqlarının musiqisini öyrənən qrupun növbəti simpoziumu isə Qırğızıstanın Manas Universiteti tərəfindən 2020-ci ildə təşkil olunacaq. Biz həmyerlilərimizi digər qrupların da elmi fəaliyyətində görmək istərdik. Məsələn, tətbiqi etnomusiqişünaslıq, audiovizual etnomusiqişünaslıq və etnoxoreologiya, ifaçılıq sənətinin ikonoqrafiyası, musiqi və milli azlıqlar, musiqi və gender, musiqi arxeologiyası, musiqi alətləri və s. qruplar.

Konfrans günlərində aşağıdakı tədbirlər keçirildi: açılış mərasimi, elmi iclaslar, dəyirmi masalar, vorkşop (*workshop*), biznes-mitinqlər, həm nahar, həm də axşam konsertləri, plenar iclaslar, qapanış mərasimi. İclasların birində ICTM təşkilatının sədri ilə UNESCO nümayəndəsinin rəsmi görüşü də təşkil olunmuşdur. Dinləyicilər istədikləri auditoriyaya və məruzəyə vaxtında yetişə bilsinlər deyə, paralel davam edən sessiyalarda cədvələ ciddi riayət edilirdi. Arada *coffee-break* və nahar fasilələri olmaqla hər otaqda 4 sessiya və ya Tədqiqat Qruplarının biznes-mitinqləri keçirilirdi.

Hər bir panel sessiyası və iclasa müəyyən tematik başlıqlar verilmiş və mövzular müasir etnomusiqişünaslığın aktual məsələlərini əks etdirirdi. Panel mövzularından bəzilərinə nəzər salaq: Media və qarşılıqlı mədəni araşdırmalar; Notlaşdırma məsələləri; Təcrübəyə əsaslanan musiqi və rəqs tədqiqatları; Səriştə və miqrasiya; Tədqiqatın paradiqma və yanaşmaları; Banqkok və Los-Anjeles arasında altmış illik musiqi mübadilələri; Dayanıqlı icmaların qurulması; Diaspordakı musiqi milliyyətçiliyi; Qadınların musiqi icması; Yaddaş, şifahi tarix və səs arxivləri; Mədəni diplomatiya və s.

Banqkok konfransında hər gün iki dəfə olmaqla çeşidli konsert proqramları keçirildi, bundan başqa seminarlarda (*workshop*) müxtəlif xalqların ifaçılıq sənəti təqdim olundu. Proqramlar etnomusiqişünaslığın başlıca tendensiyasına uyğun olaraq, dünya ölkələrinin musiqi mədəniyyətini əhatə edərək bütün qonaqların musiqi dünyagörüşünün genişləndirilməsinə dəyərli töhfə verdi. Lakin konsertlərdə Cənub-Şərqi Asiya xalqlarının musiqisi böyük üstünlük qazandı – Tailand, İndoneziya, Tayvan, Bhutar, Bruney, Filippin, bir qədər şimalda yerləşən, Çin, Korea və Yaponiyanın, yaxın qitələrdən Avstraliya, Cənubi Afrika, uzaq Amerika qitəsindən isə ABŞ və Kanadanı təmsil edən ifaçılar Çulalonqkorn Universitetinin Gözəl və Tətbiqi Sənətlər Evində (*Fine and Applied Arts Building*) bir araya gələrək konfransın bir festival qədər geniş və rəngarəng konsert proqramlarına əlvan rənglər qatdılar.

Qərb mütəxəssislərinin uzaq qitə və ölkələrin zəngin musiqi ənənələrinə qarşı elmi və bədii marağının canlı şahidi olmaq çox maraqlı idi. Zənnimcə, belə bir marağın əmələ gəlməsində etnomusiqişünasların elmi tədqiqatlardan başqa, təbliğat və təşviqat işlərinin də böyük rolu var. Xarici ölkələrdə Azərbaycanın ənənəvi musiqisinin, ilk növbədə klassik muğam sənətinin sevilərək və anlayışlı şəkildə qarşılanmasında da tədqiqat və təbliğatın önəmli xidməti olmuşdur.

Respublikamız İCTM-in Tailand konfransında mənbəşünas-alim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar incəsənət xadimi Sürəyya Ağayeva və bu sətirlərin müəllifi ilə təmsil edildi. Bu dəfə bizlərə iki müxtəlif iclasın sədrliyi vəzifəsi həvalə olunmuşdu. Eyni zamanda xarici mütəxəssislərin Azərbaycan musiqisi haqqında bəzi məruzələri də yadda qaldı: Anna Oldfield (ABŞ), əslən azərbaycanlı olan Saşar Zərif (Kanada), Behrəng Nikain (İran İslam Respublikası). Bundan başqa konfransın gündəliyinə Türk xalqlarının musiqisinə həsr olunmuş məruzələr də daxil olunmuşdu. Emin Soydaş (Türkiyə), Qaliya Begimbetova (Qazaxıstan), Raçil Harris (Böyük Britaniya).

Maraqlıdır ki, konfransa Qırğızıstandan iki nümayəndə təşrif buyurmuşdu – Kanıkey Muxtarova və Altınay Abetekova. Onların məruzələrindən hər birinin üzərində dayanmaq imkanı olmasa da, hesab edirəm Rusiyadan gəlmiş Z.İmamuddinovanın mövzusu üç qitənin - Avropa (Rusiya), Asiya (Çin) və Afrikada (Sudanda) yayılmış pentatonika əsaslı azan oxumaları ilə xüsusi diqqətə layiqdir. Bu ənənələrə bir-birilə sıx əlaqədə baxılması təbii ki, dünya etnomusiqişünaslığının təmayüllərinə uyğun mütəxəssislərin marağına səbəb oldu.



*Y.İmamuddinova (Rusiya), M.Aqata Ozah (Nigeriya), R.Sultanova (Böyük Britaniya), F.Xalıqzadə (Azərbaycan), İ.Naroditskaya (ABŞ)*

***Bir haşiyə.*** *Bir il öncə İsme (International Sosiety of Music Education) təşkilatının Bakıda keçirilmiş Ümumdünya Konfransında "Türk xalqlarının musiqisində axsaq ritmlərin öyrənilməsi" adlı elmi məruzə ilə çıxış etmişdim. Mövzumun bu şəkildə ifadə olunması barədə müəyyən qədər düşünüb-daşınmalı olmuşdum. Sözügedən ritmik üslubun həm çeşidli Türk xalqlarında, həm də onların qonşularında müşahidə olunmuşdu. Daha uzaq ölkə və qitələrdə yaşayan etnoslarda isə axsaq ölçülər barədə heç bir faktın olmaması əsasında onların yoxluğu qənaətinə gəlmişdim. 2019-cu il ICTM konfransının bir günü Cənubi Afrikalı zərb ifaçısı və eləcə də Avstraliyalı bir müğənni məni həmin mətləbimə çatdırdılar. Nəticədə həmin ritm mövzusunda əvvəlki mövqeyimdə əhəmiyyətli bir düzəliş etdim.*

*Çox təəssüf ki, Fine and Applied Arts ofisinin konsert səhnəsində izlədiyim ifaçıların özləri ilə görüşüb, kiçik bir sahə araşdırması aparmaq mənə müyəssər olmadı – həmvətənləri konsertdən sonra musiqiçilərin çıxıb getdiklərini və bir də sabah gələcəklərini söylədilər. Ertəsi gün yüzlərlə məruzəçi və musiqi ifaçıları arasında adını belə bilmədiyim şəxsləri tapmaq isə müşkül bir məsələ idi. Beləliklə, araşdırdığım ritm üslubu barədə sadəcə bəzi ehtimallarla kifayətlənməli oldum.*

İclasların biri bəzi məktəblərin (Xorvatiya, Çin, Tailand, Keniya) hazırkı vəziyyətinə həsr olunmuşdu. Digər qeyri-Avropa elmi məktəbləri kimi Azərbaycan etnomusiqişünaslığı da əsas nəzər-diqqətini öz milli musiqi mədəniyyətinə yönəldir. Lakin, milli musiqini daha yaxşı anlamaq üçün onun janr və üslublarını, ənənə və təmayüllərinin ümumdünya kontekstində öyrənilməsi heç də faydasız olmazdı. Mütəxəssislərimizin dünya elminə inteqrasiya olmasında da beynəlxalq təcrübə ilə yaxşıca tanış olmaq vacib şərtlərdən biridir. Tədqiqatçıların milli çərçivəni aşıb, dünyaya açılması arzu olunur. O zaman dünyanın da musiqi mənzərəsi daha rəngarəng və işıqlı görünəcəkdir.



*Yarmarka musiqiçiləri*

Belə tədbirlərdə bazar günləri bir qayda olaraq, ölkənin görməli yerlərinə təşkil olunan ekskursiyalara ayrılır. Konfrans günlərində paytaxt Banqkokdan bir qədər aralı olan üç müxtəlif tarixi məkana etdiyimiz səyahət biz qonaqları sanki başqa bir dünyaya apardı: *Ayuthayya* - Orta əsr hökmdarlarının iqamətgahı, təbiət qoynunda, çayın hər iki sahilində qurulmuş Ticarət mərkəzi (yarmarka) və XVIII əsr kralı Praqmanın malikanəsi. Yarmarkada müxtəlif suvenirlər, sənaye malları satılan dükanlar, kafe və restoranlarla yanaşı yüngül musiqi də geniş yer tuturdu. Balaca uşaqlardan böyüklərə qədər müxtəlif yaş qruplarının *karaoke* ifaları həmin məkana əsl bayramsayağı əhvali-ruhiyyə bəxş edirdi.



*Praqma La malikanəsi*

45-ci ICTM dünya konfransının yüksək səviyyədə təşkilində Şuranın rəhbərliyi ilə yanaşı texniki komissiya üzvlərinin öz vəzifələrini dəqiq şəkildə icra etməsi də az rol oynamamışdı. Sadə və xeyirxah Tailand sakinləri ölkə paytaxtının hər yerində qonaqları gülər üzlə qarşılayır, hər zaman onlara yardımçı olmağa, yol göstərməyə hazır olur və müəyyən ünvana qədər müşayiət edirdilər. Çulalonqkorn Universitetinin müəllim və tələbləri, texniki personalı bizi yenə də görməyə şad olduqlarını söyləyirdilər. Elə buna görə də, Çin, Qətər və ya İstanbul üzərindən keçib uzunca bir təyyarə reysi ilə uzaq və cazibədar Taylar ölkəsinə yenə də səfər etməyə dəyər.

**Фаттах Халык-заде**
Доктор философии по искусствоведению,
заслуженный деятель искусств, профессор

## НА ВСЕМИРНОЙ ТАИЛАНДСКОЙ КОНФЕРЕНЦИИ

***Резюме:*** *В этом году Университет ЧулалангкорнТаиланда принял гостей 45-ой Всемирной конференции ICTM на которой участвовали видные этномузыковеды и этнохореологи из всех континентов Земного шара. В рамках данной конференции прошло обсуждение новейших достижений практики и теории отмеченных дисциплин. В статье освещаются разнообразные мероприятия прошедшего форума, основные методологические дискуссии, состояние западных и неевропейских школ, и, в частности, роль традиционной музыки и танца Азербайджана и других тюркских народов в контексте всей мировой культуры*

***Ключевые слова:*** *этномузыкознание, традиционная музыка и танцы, мировые культуры, новые методы и подходы*

**Fattakh Khalig-zade**
Ph.D, professor

## ICTM WORLD CONFERENCE IN THAILAND

***Summary:*** *This year Chulalongkorn University of Thailand hosted 45th ICTM World conference. The conference assembled the renown scholars of ethnomusicology and ethnochoreology all over the world to discuss newest achievements of these disciplines.The article mentions conference's various events, methodological issues, state of non-European schools, and particularly the view on the Azerbaijani and Turkic peoples traditional music and dance practices in relation to the world cultures with the aim to encourage scietific activities of national colleagues.*

***Keywords:*** *ethnomusicology, traditional music and dance, world cultures, new methods and approaches*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova
filologiya üzrə fəlsəfə doktoru, dosent Fəxrəddin Baxşəliyev

## QƏDİM MƏDƏNİ TELLƏRİ BƏRPA EDƏRƏK…

Çin Mərkəzi Konservatoriyasının dəvəti ilə Azərbaycan Milli Konservatoriyasının rektoru, professor Siyavuş Kərimi ilə birlikdə bu ilin aprel ayında Pekində keçirilən "Kəmər və yol" boyu Musiqi Təhsili Alyansının II konfransı və İpək Yolu Musiqi Festivalında iştirak etdik. Bu ad altında həyata keçirilən nəhəng iqtisadi təşəbbüs 70-ə yaxın ölkədə yaşayan dünya əhalisinin 60%-ini əhatə edir və qarşıya 2049-cu ilə qədər geniş fəaliyyət məqsədləri qoyur. İnfrastruktur, sərmayələr, iqtisadi inkişaf məsələləri ilə yanaşı təhsil və mədəniyyət sahəsində sıx əlaqələrin və regional mübadilənin qurulması və inkişafını nəzərdə tutur. Həmin ölkələr tarixən tanınan Böyük İpək Yolu boyu yerləşən ərazilərə aiddir və onların içərisində Azərbaycan da vacib yer tutur. Bu mənada musiqi təhsili və təbliği sahəsində əlaqələrin qlobal miqyasda bərpa edilməsi və müasir müstəvidə təşkili Çin həmkarlarımızın qarşısında duran irimiqyaslı və uzunmüddətli bir vəzifədir.

Dünyanın rəngarəng musiqi palitrası bir neçə günlük festivalın proqramında öz əksini tapmışdı – dünyanın müxtəlif ölkələrindən ənənəvi musiqi kollektivləri öz sənətini bir neçə meydançada nümayiş etdirdi. Festivalın ən yaddaqalan tamaşalarından biri isə Cakomo Puççininin "Turandot" operasının ev sahibliyi edən konservatoriyasının rektoru, tanınmış dirijor Yu Fen-in rəhbərliyi altında bu musiqi ocağının orkestr və xorun müşayiəti ilə tələbə və məzunların ifasında onlarla ölkədən toplaşan qonaqlara təqdim olunması oldu.

Üç gün davam edən konfransda Rektorların Zirvə Toplantısı başlığı altında bir neçə mövzuda məruzələr dinləndi: Musiqi təhsilində resursların paylaşması; Əməkdaşlıq və gələcəyi görmək; Musiqi təhsilində müxtəlif ölkələrin unikal təcrübəsi. Professor Siyavuş Kərimi öz çıxışında dahi Üzeyir Hacıbəylinin təsis etdiyi Şərq və Qərb musiqi sistemini uzlaşdıran unikal musiqi təhsili modeli barədə ətraflı məruzə etdi.

**Cahangir Səlimxanov**
AMK-nın Beynəlxalq əlaqələr Departamentinin rəhbəri,
əməkdar incəsənət xadimi

## NÖVBƏTİ DÜNYA MUSİQİ ÇƏLƏNGİ – SƏMƏRQƏNDDƏ

1997-ci ildən bəri hər iki ildə bir dəfə Özbəkistanın Səmərqənd şəhərində keçirilən "Şərq təranələri" Beynəlxalq Musiqi Festivalı bu ilin avqustunda on ikinci dəfə baş tutdu.

Şərqin incisi sayılan Səmərqəndin tarixi memarlıq abidələri UNESCO-nun Dünya irsi siyahısına daxildir və həmin məkanın canlanması və daha da geniş tanıdılması